**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.2.104**

**TOĞRUL XƏLİLOV**

# NAXÇIVAN DİYARININ ORTA ƏSRLƏR DÖVRÜ MADDİ MƏDƏNİYYƏTİNƏ AİD YENİ ARXEOLOJİ TAPINTILAR

*Naxçıvan Muxtar Respublikasının ərazisindəki arxeoloji abidələr, onlardan əldə olunan hər bir maddi-mədəniyyət nümunələri nəinki Azərbaycan eyni zamanda dünya arxeologiyasında özünəməxsus yer tutur. Onların tədqiqi bu ərazidə məskunlaşmış insanların məişət və təsərrüfat həyatına aid yeni faktlar əldə etməyə imkan verir. Bu cəhətdən Naxçıvan diyarının ərazisindəki Orta əsrlər dövrünə aid abidələrindən aşkar olunmuş daşdan düzəldilmiş artefaktlar da mühüm yer tutur. Məqalədə onların təyinatı, üzərindəki naxış motivi və digər məsələlər öyrənilmişdir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, onların hər biri təsadüfən düzəldilməmiş, müəyyən məqsədlə istifadə edilmişdir. Onların hamısının eyni olmamasının başlıca səbəbi ondan ibarət olmuşdur ki, ayrı-ayrı sənətkarlar tərəfindən düzəldilmişdir.*

**Açar sözlər:** *Naxçıvan, artefakt, sütun altlığı, insan fiquru.*

**Giriş:** Naxçıvan Muxtar Respublikası əlverişli təbii-coğrafi mövqeyə, qədim və zəngin tarixə malikdir. Muxtar respublikamızın ərazisindəki hər qarış torpağın, daşın altında abidələrimiz, tarıximiz yaşayır. Bu ərazidəki arxeoloji abidələr, onlardan əldə olunan hər bir maddi-mədəniyyət nümunələri həm Azərbaycan, həm də dünya arxeologiyasında özünəməxsus yer tutur. Onların tədqiqi bu ərazidə məskunlaşmış insanların məişət və təsərrüfat həyatına aid yeni faktlar əldə etməyə imkan verir. Bu cəhətdən Naxçıvan diyarının Orta əsr abidələrindən aşkar olunmuş hər bir maddi-mədəniyyət nümunəsi kimi daşdan olan artefaktlar da mühüm yer tutur.

**Daş artefaktlar haqqında.** Naxçıvanın Orta əsr tarixinin öyrənilməsində özünəməxsus yer tutan arxeoloji materiallar sütun altlığından (şəkil 1, 1), daşda yonulmuş insan təsvirindən (şəkil 2) və üzərində təsvir olan daş artefaktlardan (şəkil 3; şəkil 4) ibarətdir.

Sütun altlığı Naxçıvan şəhərinin ərazisində, tərəfimizdən qeydə alınmışdır (şəkil 1, 1). Onun üzərindəki ornamentin yayılma arealı ilə bağlı apardığımız araşdırma zamanı məlum olmuşdur ki, bu naxış motivindən istər qədim dövrdə, istərsə də sonrakı dövrlərdə geniş istifadə edilmişdir [3] . Nəhəcirdən aşkar olunmuş Orta Tunc dövrünə aid keramika parçasını [6, s. 112, şəkil 3.150], Son Tunc-Erkən Dəmir dövrünə aid II Kültəpə abidəsindən aşkar olunmuş kasa tipli qabı [2, s. 165, şəkil 169, 2] (şəkil 1, 2, 3), Cənubi Azərbaycandakı Tunc dövrünə aid qayaüstü təsvirləri [18, tab. 5. 2], Azərbaycan xalçalarını [14, s. 21, рис. 4], Yusif İbn Kuseyir, Gülüstan türbələrinin planını, Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərindəki rəsmi və digər faktları buna nümunə göstərmək olar. Rəsmlər arasında oxşar əlamətlərlə yanaşı fərqli cəhətlərin olmasının başlıca səbəblərindən biri ondan ibarətdir ki, hər bir mədəniyyətin özünəməxsus xarakterik xüsusiyyəti, onları hazırlayan sənətkarların bacarıq və vərdişləri, estetik zövqü olmuşdur.

Bu həndəsi ornamentin semantikası ilə bağlı araşdırma apararkən məlum olur ki, bu tip naxış motivi günəşi simvolizə etmişdir. Onların müxtəlif formada verilməsinin hər birinin müəyyən simvolik mənası olmuşdur. Sütun altlığının üzərindəki günəş təsvirinin səkkiz bucaqlı verilməsi də müəyyən semantik məna daşımışdır. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, səkkiz geniş semantik mənaya malikdir. Onun Azərbaycan sözünün əski əlifba ilə yazılışını bildirməsi, uğuru, inamı, türkçülüyü, islamçılığı, çağdaşlığı, bərabərliyi, cənnətin səkkiz qapısını və s. simvolizə etməsi ilə bağlı müxtəlif fikirlər vardır [20; 1, s. 88]. Bəzi mənbələrdə içərisində səkkiz bucaqlı ulduz olan dairənin dördbucağın içərisində verilməsini kosmik tarazlığın sayını bildirməsi, yerlə göy arasındakı əlaqəni, keçid mərhələsini, günəş şüalarının dünyaya təxminən səkkiz dəqiqəyə çatmasını, sonsuzluğu, yəni əbədi inkişafı simvolizə etməsi də qeyd edilmişdir [21]. Şumer mifologiyasında səkkiz rəqəminin dünya tufanı ilə bağlı olaraq müqəddəs hesab edildiyi öz əksini tapmış-

dır. Şumer əfsanəsinə görə dünya tufanı yeddi gün, yeddi gecə davam etmişdir. Səkkizinci gün Günəş Tanrısı Utu torpağa istilik göndərmişdir [9, s. 174]. Səkkiz guşənin yer kürəsini sxematik şəkildə əks etdirdiyini, üfüqün cəhətlərini göstərdiyini də ehtimal etmək olar. Çünki üfüqün dörd əsas (şimal, cənub, şərq və qərb) və dörd aralıq cəhəti (şimal-qərb, şimal-şərq, cənub-qərb, cənub-şərqdir) var. Bunlar da birlikdə səkkiz bucaqlı ulduza bənzəyir [3].




**Şəkil 1.** 1 – Naxçıvan şəhəri (T.Xəlilov); 2 – Nəhəcir (Rzayev, 2013);
3 – II Kültəpə (Baxşeliyev, 2004).

Daşda yonulmuş insan təsviri (şəkil 2). Ordubad rayonunun Tivi kəndindəki XVI-XVIII əsrlərə aid Meydan məscidində aparılan təmir işləri zamanı torpağın altından çıxarılmışdır. Məsciddə aparılan təmir tikinti işləri zamanı qırıq şəkildə aşkar olunmuş daş artefaktlardan ikisinin üzərində sxematik insan təsviri (şəkil 3, 1), digərinin üzərində isə dairə içərisində onbir guşəli təsviri çəkilmişdir (şəkil 3, 2). Bu arxeoloji materiallar qırıq şəkildə aşkar olunduğu üçün onların təyinatı haqqında dəqiq fikir demək bir qədər çətindir. Ehtimal etmək olar ki, hər iki arxeoloji material məscidin içərisindəki qəbirə aid parçalar olmuşdur. Onların üzərindəki təsvirlər də təsadüfən çəkilməmiş, müəyyən semantikaya malik olmuşdur [3].




**Şəkil 2.**

İnsan təsvirlərinin yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, dünyanın müxtəlif yerlərindəki qayaüstü təsvirlərdə Pireney yarımadasından Sibirə qədər olan geniş bir ərazidə, Hələf, Anau, Samara, Cormo, Xatun mədəniyyətinin abidələrində daşdan, sümükdən və gildən düzəldilmiş insan fiqurları aşkar olunmuşdur. Daşdan düzəldilmiş insan fiqurları forma və xüsusiyyətlərinə görə bir-birindən fərqləndiyi üçün onlara “venera”, “balbal”, “daşbaba”, “daşnənə”, “bəngüdaş”, “bədiz” və sair adlar verilmişdir. Ən qədim insan heykəli qadına məxsus olmuşdur. Onu Avstraliyadakı Paleolit dövrünə aid Villendorf abidəsində qeydə almışlar. Bu daş insan fiquruna aşkar olunduğu yerinə görə “Villendorf venerası” adı verilmişdi [4, s. 6]. Azərbaycandakı arxeoloji abidələr içərisində ən qədim insan fiquru Qobustanda Mezolit dövrünə aid Kənzə yaşayış məskənində aşkar edilmişdir [16, s. 41]. Paleolit və Mezolit dövrü ilə yanaşı digər dövrlərdə də belə artefaktlar yayılmışdır. Qazax rayonundakı Şomutəpə, Qarğalartəpəsi, Qarabağdakı İlanlıtəpə, Cənubi Azərbaycandakı Təpə-Sərab [4, s. 12], Şərqi Anadoludakı Çatalhöyük, Dündartəpə, Hacılar [1, s. 154, 160. 164] abidələrində və digər yerlərdə belə arxeoloji materiallar aşkar olunmuşdur. Onların hər biri müəyyən semantik mənaya malik olmuşdur. Ən qədim insan fiquru qadına məxsus olmuşdur. Ana xaqanlığı dövründə belə artefaktlar daha çox yayılmışdır. Belə qadın fiqurları “Ana-Tanrı”nı simvolizə etmişdir. Onların Ana xaqanlığı dövründə daha geniş yayılmasının, “Ana-Tanrı”nı simvolizə etməsinin başlıca səbəbi ondan ibarətdir ki, Ana xaqanlığı dövründə qadın nəslin yaradıcısı, tayfa ocağını qoruyub saxlayan, ilahi qüvvə, bərəkət, firavanlıq mənbəyi, paklıq, müqəddəslik rəmzi hesab edildiyi üçün insanların dini-ideoloji görüşlərində mühüm yer tutmuşdur. Onların əksəriyyətində qadının əlləri, ayaqları, üzü şərti, sxematik xarakterdə, digər xüsusiyyətləri isə bir qədər qabarıq şəkildə verilmişdir. Erkən Tunc dövründə Ana xaqanlığının (matriarxat) Ata xaqanlığı (patriarxat) ilə əvəz olunması nəticəsində insanların dini-ideoloji görüşlərində, düşüncə tərzində dəyişikliklər baş vermişdir. Kişi təsərrüfat işlərində, tayfanın idarə olunmasında əsas şəxs olduğu üçün insanların dini-ideoloji görüşlərində, düşüncə tərzində də özünəməxsus yer tutmuşdur. Kişi fiqurları əyilməzliyi, məğrurluğu, gücü, qüvvəti bildirmiş, “Ata-Tanrı”nı simvolizə etmişdir. Qadın fiqurları kimi onlar da “Əcdad kultu” ilə bağlı olmuşdur. Müəyyən ritual ayinlərin icrasında istifadə edilmişdir. İnsan fiqurlarının “Əcdad kultu” ilə bağlılıq təşkil etməsi, müəyyən ritual ayinlərin icrasında istifadə edilməsi ilə bağlı mənbələrdə xeyli məlumatlar vardır. R.K.Balandin [12, s. 216], S.A.Tokarev [13, s. 255, 261] və digər tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər.

S.A.Tokarev əcdad kultunu dinin xüsusi forması hesab etmiş, onun türklərin dini-ideoloji görüşlərində, mənəvi mədəniyyətində mühüm yer tutduğunu qeyd etmişdir. Tədqiqatçının fikrinə görə qadın heykəlləri ocağın ətrafında heç də təsadüfən tapılmamışdır. Onlar qadının ocağın sahibi, odun qoruyucusu olmasını simvolizə etmişdir [13, s. 255, 261].

R.K.Balandin qadın heykəllərinin ocağın ətrafına təsadüfən qoyulmadığını düşünmüşdür, hesab etmişlər ki, belə fiqurlar qadının qəbilə başçısı, qəbilə ayinlərinin icraçısı olmasını simvolizə etmiş, bununla bağlı müəyyən dini ayinin icrasında istifadə edilmişdir [12, s. 216].

S.Rzasoya [7, s. 183] görə türklərin mifoloji düşüncəsində, dini-ideoloji görüşlərində özünəməxsus yer tutan Oğuz xaqan obrazı da “Əcdadlar kultu” ilə bağlılıq təşkil edir.

L.N.Qumilyov qeyd olunan məsələyə münasibət bildirərkən “Əcdad kultu”nun Altay türklərində əsasən əyanlar, əhalinin varlı təbəqəsi arasında geniş yayıldığını söyləmişdir [15, s. 76].

“Oğuz Xaqan”, “Yaradılış”, “Kitabı-Dədə Qorqud” və digər qədim türk dastanlarında da “Əcdad kultu”nun insanların dini-ideoloji görüşlərində özünəməxsus yer tutması ilə bağlı məlumatlar vardı. “Oğuz Xaqan” dastanında Oğuz xaqan, “Yaradılış” eposunda Qara xan, “Kitab-i Dədə Qorqud” dastanında isə Dədə Qorqud (Qorkut Ata) əcdad kultunu simvolizə etmişdir.

Meydan məscidində aşkar olunmuş daşın üzərindəki dairə içərisində yonma üsulu ilə çəkilmiş on bir guşəli təsvirin semantikası ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, bu tip təsvirlər günəşi simvolizə etmişdir. Belə təsvirlər müxtəlif yerlərdə aşkar olunmuşdur. Onlar on, on bir, on iki və s. guşəli formada verilmişdir. Onlar günəş inamı ilə bağlı olmuşdur Azərbaycanla ya-

naşı dünyanın müxtəlif yerlərindəki arxeoloji abidələrdə üzərində belə təsvirlər olan keramika məmulatları, xalçalar, qəbir daşları və s. aşkar olunmuşdur. Dar kəndinin ərazisində qeydə aldığımız daşın üzərindəki (şəkil 3, 3) yazının bir hissəsi yaxşı saxlanılmadığından onu oxumaq mümkün olmasa da, digər daş artefaktlar kimi onun da Naxçıvanın Orta əsrlər dövr tarixini öyrənmək üçün elmi əhəmiyyət daşıdığını qeyd etmək olar.




**Şəkil 3.**

Culfa rayonunun ərazisində aşkar olunmuş daşın üzərində olan cızma üsulu ilə çəkilmiş təsvirin (şəkil 4, 2) yayılma arealı və semantikası ilə bağlı apardığımız müqayisəli araşdırma nəticəsində onu qeyd etmək olar ki, bu təsvir də təsadüfən çəkilməmiş, müəyyən semantik mənası olmuşdur.




**Şəkil 4.**

Aparılan müqayisəli araşdırma zamanı məlum olmuşdur ki, həyat ağacına bənzər bu tip rəsmin bənzəri Dəlmə qalasından aşkar olunmuş gildən düzəldilmiş iy başlığının üzərində [5, s. 76-77], salur, çepni boylarının damğaları arasında [10, s. 51], Bolqarıstan ərazisindəki prototürk mədəniyyətinə aid qayaüstü təsvirlərin içərisində də vardır [8, s. 70].

**Mis sikkələr.** Naxçıvan diyarının Orta əsrlər dövrü tarixinin öyrənilməsində özünəməxsus yer tutan arxeoloji materiallardan biri Naxçıvan şəhərinin ərazisində tapılmış çəkisi 5,92 qram olan mis sikkədir. Onun Elxanilər dövləti dövründə Elxani hökmdarı Əbu Səidin dövründə (hicri 716-736-ci illər) kəsildiyini ehtimal etmək olar (şəkil 4, 5).

Tivi kəndinin ərazisində aşkar olunmuş (şəkil 4, 1) çəkisi 5,96 qram olan mis sikkənin bir tərəfində quş təsviri, digər tərəfində isə yazı vardır. Bu sikkə ilə bağlı apardığımız araşdırma nəticəsində onun üzərindəki yazının bir hissəsi yaxşı oxunmadığı üçün bu haqda dəqiq fikir demək çətin olsa da, üzərindəki digər təsvirlə bağlı müqayisəli araşdırma apararaq bu sikkənin dövrünü müəyyən etmək mümkündür. Bu istiqamətdə tərəfimizdən aparılan müqayisəli araşdırma nəticəsində məlum olmuşdur ki, belə mis sikkələrdən Səfəvilər dövlətinin son dövrlərində istifadə edilməsi ilə bağlı Ə.Rəcəblinin "Монетное дело во второй половине XVIII – начале XIX века (чеканка монет и денежное обращение в азербайджанских ханствах)" [17, s. 178, ils. 128], Gəncə, İrəvan xanlığında üzərində belə quş təsvirləri olan mis sikkələrdən XVIII əsrdə istifadə edilməsi ilə bağlı "Azərbaycan: dövlət rəmzləri və atributları" kitabında məlumatlar vardır [19, s. 47, 50]. Onların hamısının XVIII əsrə aid olmasına əsasən ehtimal etmək olar ki, Tivi kəndinin ərazisində təsadüf nəticəsində aşkar olunmuş mis sikkə də həmin dövrə aiddir. Onun Səfəvilər dövlətində, Gəncə və İrəvan xanlığında istifadə edilmiş mis sikkələrdən fərqlənməsinin əsas səbəbi yerli zərbxanalarda kəsilməsidir [3].




**Naxçıvan şəhərinin ərazisindən tapılan mis sikkə**

**Şəkil 5.**

**Nəticə.** Aparılan araşdırma nəticəsində sonda onu qeyd etmək olar ki, tərəfimizdən qeydə alınmış arxeoloji materialların hər biri Naxçıvan diyarının Orta əsrlər dövrü tarixini, maddi və mənəvi mədəniyyətini öyrənmək sahəsində özünəməxsus yer tutur. Onlar ayrı-ayrı sənətkar emalatxanasının məhsulu olduğuna görə, müxtəlif məqsədlə istifadə edildiyi üçün eyni olmamış, forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənmişlər. Hər birinin düzəldilməsində insanların sənətkarlıq qabiliyyəti, bacarıq və vərdişləri mühüm yer tutmuşdur. Daş artefaktların üzərindəki ornamentlər, yazı təsadüfən çəkilməmişdir. İnsanların dini ideoloji görüşləri, düşüncə tərzi ilə bağlı müəyyən semantik mənası vardır. Mis sikkələr Naxçıvan diyarının Orta əsrlər dövrü dövlətçilik tarixini öyrənmək üçün mühüm elmi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Ağasıoğlu F. Azərbaycan türklərinin İslamaqədər tarixi (Doqquz Bitik). I Bitik: Tarixi qaynaqlar, Bakı, 2014, 337 s.
2. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Xəlilov T. Naxçıvan tarixinə aid yeni tapıntılar. "525-ci qezet", 2025, 28 fevral.
4. İbrahimov T. Azərbaycan qədim heykəltəraşlığı. Bakı: Şərq-Qərb, 2013, 112 s.
5. İbrahimli B.İ., Səfərli F.Y., Yusifova S.Q. Dəlmə qalasının arxeoloji tədqiqi / Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları (24 aprel 2015-ci il). Bakı, 2015, s. 76-77.
6. Rzayev Z. Nəhəcirin Orta Tunc dövrü abidələri. Naxçıvan: Əcəmi, 2013, 163 s.
7. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Nurlan, 2007, 182 s.
8. Yengi Ö.R., Tuncay B. Kür-Araz mədəniyyəti və türk damğaları, damğadan yazıya keçid. Bakı, 2013, 83 s.
9. Kramer S.N. Sumer mitolojisi. İstanbul: Kabala Yayınevi, 1999, 220 s.
10. Ebülgazi B.H. Şecerei terakime turklerin soy kutugu / Tercüman 1001 temel eser 33. İstanbul: Tercüman, 1974, 203 s.
11. Oral E. Anadolu'da ana tanriça kültü // Akademik Sosyal Araştırmalar Dergisi, 2014, yıl 2, sayı 8, s. 154-164.
12. Баландин Р.К. Сто великих богов. Москва: Вече, 2002, 431 с.
13. Токарев С.А. Ранние формы религии. Москва: Политиздат, 1990, 622 с.
14. Керимов Л. Азербайджанский ковер: в 2-х тт. Т. II, Баку: Гянджлик, 1983, 241 с.
15. Гумилев Л.Н. Древние тюрки. Москва: Клышников, 1993, 526 с.
16. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Баку: Элм, 1979, 118 с.
17. Раджабли А. Монетное дело Азербайджанского государства Сефевидов. Баку: Зия, 2014, 232 с.
18. Naserifard M. Iran Petroglyphs (Ideogram Symbols). Iran: Khomeyn self-published, 2009, 350 p.
19. Azərbaycan: dövlət rəmzləri və atributları. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası: https://files.preslib.az/projects/remz/pdf/atr_pullar.pdf
20. Ardiç M.A. Köşeli Yıldızların Sembolizmi [Elektron resurs]. 08 ağustos, 2007: https://gizliilimler.tr.gg/K.oe.seli-Yildizlarin-Sembolizmi.htm
21. Astroset. Sembolizm. Daire Sembolü [Elektron resurs]. 07 temuz, 2010. https://www.astroset.com/bireysel_gelisim/sembol/s19.htm

***AMEA Naxçıvan Bölməsi***
***Email: x.toqrul@gmail.com***

**Togrul Khalilov**

## NEW ARCHAEOLOGICAL FINDS RELATED TO THE MEDIEVAL PERIOD MATERIAL CULTURE OF THE NAKHCHIVAN REGION

The archaeological monuments on the territory of the Nakhchivan Autonomous Republic and the material cultural samples obtained from them occupy a unique place not only in Azerbaijani archaeology but also in world archaeology. Their study allows for the discovery of new facts about the domestic and economic life of the people who inhabited this area. In this regard, the stone artifacts discovered at medieval sites in the Nakhchivan region hold significant importance. This article examines their purpose, ornamentation, and other aspects. The research established that each artifact was not made randomly but was created for a specific purpose. The primary reason for their differences lies in the fact that they were crafted by different artisans.

**Keywords:** *Nakhchivan, artifact, column base, human figure.*

**Тогрул Халилов**

## НОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ НАХОДКИ, ОТНОСЯЩИЕСЯ К СРЕДНЕВЕКОВОЙ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЕ НАХЧЫВАНА

Археологические памятники на территории Нахчыванской Автономной Республики, а также материально-культурные образцы, полученные из них, занимают особое место не только в археологии Азербайджана, но и в мировой археологии. Их изучение позволяет получить новые факты о бытовой и хозяйственной жизни людей, населявших эту территорию. В этом отношении артефакты, изготовленные из камня и обнаруженные в средневековых памятниках Нахчыванского региона, занимают важное место. В статье изучены их назначение, орнаменты и другие аспекты. В результате исследований было установлено, что каждый из этих артефактов был изготовлен не случайно, а использовался с определенной целью. Основной причиной различий между ними является то, что они были изготовлены разными мастерами.

**Ключевые слова:** *Нахчыван, артефакт, основание колонны, человеческая фигура.*

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.06.2025**
**Son variant 24.07.2025**